## Cəmilə Çiçək

### Kimsə Ayırmasın Bizi Dünyada

Gəl hicran əlindən al, qopar məni,
Sənsiz dərd axtarar, qəm tapar məni.
Çiçəklər içindən seç, apar məni,
Kimsə ayırmasın bizi dünyada.

Qıyma bəslədiyim güllərim solsun,
Vüsal piyaləmiz eşqinlə dolsun,
Al götür ürəyim qoy sənin olsun,
Kimsə ayırmasın bizi dünyada.

Sənin gözlərindən baxım əksimə,
Tar kimi könlündə köklənim simə.
Dolanım başına, sıxım köksümə,
Kimsə ayırmasın bizi dünyada.

### Biləsən

Səni dərdlərimin dərmanı sandım,
Rəsminə baxdıqca hey səni andım,
Pərvanələr kimi oduna yandım
Könlüm səni unutmadı biləsən.

Gecələr yatmadım, xəyala daldım,
Sənli günlərimi yadıma saldım,
Şirin xatirənlə başbaşa qaldım,
Könlüm səni unutmadı biləsən.

Çiçəkli bahardım, sanma ayazdım,
Sehirli nəğməydim, həzin avazdım,
Bu nakam eşqimə bir dastan yazdım,
Könlüm səni unutmadı biləsən.